# ƏSRLƏRİN ƏBƏDİ ÇAĞDAŞI - NƏSİMİ

***Böyük filosof və fəlsəfi-siyasi mücahid İmadəddin Nəsiminin XIV yüzillikdə ortaya qoyduğu möhtəşəm poeziya və əfsanəvi mücadilə öz dönəmində olduğu kimi, sonrakı yüzilliklərdə də zamanı arxasınca çəkib aparan tükənməz mənəvi enerji mənbəyi olaraq yaşamaqdadır. Zahirən faciəvi görünən bu əzəmətli mücadilə hər zaman diri qalmağı və sabahlara doğru addımlamağı bacarmaq gücündədir. Özündən qabaqkı dönəmin Həllac Mənsurunu, Bəstamisini, Nəimisini bütün varlığı və ruhuyla yenidən gerçəkləşdirən Nəsimi sonralar Şah Xətayinin, Pir Sultan Abdalın, Sarı Aşığın, Xəstə Qasımın, Aşıq Ələsgərin, Əbülqasım Nəbati və Seyid Nigarinin və daha neçə-neçə bu qəbildən olan mütəfəkkir düşüncə sahibinin, eləcə də milli-mücadilə qəhrəmanlarının ruhunda, fəaliyyətində yenidən doğuldu. Ölməzliyin və yenilməzliyin əfsanəvi meyarına çevrilən və fəlsəfi məzmun daşıyan, rəmzi-məcazi obraz simasında təkrarsız olan Nəsimi barəsində divan ədəbiyyatından tutmuş aşıq ədəbiyyatına kimi hər yerdə böyük ehtiram ifadə olunmuşdur. Şah İsmayıl Xətayi:***

***Nəsimi oldu Haqla Haqq,***
***Ol üzülən dərisidir –***

deməklə Nəsimiliyin əbədi üfüqlərinə nişan vermişdir. Dərisi üzülən – işgəncə ilə cismən edam olunan Nəsimi obrazının mənən "Haqla Haqq" olması əslində "Vəhdəti-Vücud" fəlsəfəsinin təntənəsidir. Bu onu göstərir ki, Şah Xətayi sözü gedən nəhəng düşüncə sahibini məhz təsəvvüf meyarları, sufi-dərviş fəlsəfəsinin "Vəhdəti-Vücud" ucalığı ilə dəyərləndirmişdir.

Sarı Aşığın on yeddinci yüzillikdə söylədiyi bayatıdakı düşüncə:

***- Gözəllik soy iləndir,***
***Şahmar da soy ilandır.***
***Nəsimi tək bu Aşıq***
***Yolunda soyulandır –***

əqidə və məslək obrazında Nəsiminin tarix səhnəsindəki təkrarsızlığını bir daha təsdiqləyir.

Dədə Ələsgərin "Ayə məndədir" rədifli təcnisində bənd cinaslarından birinin "Nəsimi" üzərində qurulması də təsadüfən diqqət önünə çəkilməmişdir:

***Bir sazım var, yox pərdəsi, nə simi,***
***Onu çalıb kim tərpədər nəsimi?!***
***Füzuli, Firdovsi, Hafiz, Nəsimi –***
***Onlar da yazdığı ayə məndədir.***

Nəsimi və onun fəlsəfi-siyasi yenilməzliyi XX yüzillikdə də fəlsəfi-filoloji fikir müstəvisində fəal şəkildə dövriyyədə olmuşdur. Isa Muğannanın "Məhşər", Bəxtiyar Vahabzadənin "Fəryad", Qabilin "Nəsimi" əsərləri, "Nəsimi" filmi, saysız-hesabsız şeirlər, rəsm əsərləri, bəstələr bu gerçək və əfsanəvi qəhrəmanın özündən – ruhundan gələn bir enerjini daşıyırlar. Əlli il öncə Nəsiminin 600 illiyinin ulu öndər Heydər Əliyevin dəstəyi ilə böyük təntənə ilə qeyd olunması, indi isə möhtərəm cənab Prezident İlham Əliyevin sərəncamı ilə 650 illik yubileyinin təkcə Azərbaycanda deyil, beynəlxalq miqyasda da bayram edilməsi ədəbi-bədii və elmi-mədəni düşüncənin Nəsimi obrazına doğru səfərbər olunmasına böyük təkan vermişdir. Bu münasibətlə hər gün bir çox dəyərli tədbirlər keçirilir, ədəbi-bədii əsərlər yazılır, elmi araşdırmalar ortaya çıxarılır, rəsm, bəstə işləri meydana gətirilir. Deməli, Nəsimi yolu, Nəsimi mücadiləsi davam edir.

Son zamanlar bu istiqmətdə bir kütləvi axının olması da diqqəti çəkməkdədir. Belə olan halda aşağı səviyyəli yazıların, Nəsimini dərk etməkdən çox uzaqda olan konyuktur səciyyəli "əsərlərin" meydana çıxması da qaçılmazdır. "Mən niyə qalım xordan kənarda" qənaətiylə qələm-kağıza sarılan və boş gurultudan uzağa getməyən "yapma nəsimişünaslığın" ardı-arası kəsilməyən cızmaqaraları göz-könül bulandırmaqdan başqa bir işə yaramır. Bununla belə, tarixi mahiyyəti dərindən bilən, dünəndən bu günə gələn və sabaha yollanan Nəsimiliyin məğzini anlayıb dəyərləndirən örnəklərin mövcudluğunu görüncə xeyli inamın artır. "Ədəbiyyat qəzeti"ndə müəyyən parçalarını oxuduğum, sonra isə tam halda mətnini müəllifdən alıb mütaliə etdiyim "Nəsimi"





adlı mənzum dram bu anlamda məndə xoş bir heyrət yaratdı. Əsəri oxuduqca gördüm ki, istedadına və qələminə güvəndiyim Sayman Aruzun "Nəsimi" mənzum dramı həm müraciət etdiyi dövrün tarixi mənzərəsini, həm də Nəsimi fəlsəfəsinin dərinliklərini çox yaxşı təqdim edir.

Açığı, indi Nəsimidən çox adam yazır və danışır. Əlində qələm olan hər kəs özünü nəsimişünas hesab edir. Ancaq Nəsimi şeirinin poetik-fəlsəfi simvolikasını, sufi və hürufi işarələr sistemini, rəmzi-məcazi obrazların dərin qatlarını, incə məqamlarını olduqca az adam (bəlkə də beş-on nəfərdən çox olmamaq şərtilə) duyur və mənalandırmağı bacarır. Sayman Aruz bu mənada bizim filoloji fikirdə rast gəlinən tək-tək qələm əhlindən, düşüncə sahiblərindən biridir ki, Nəsimi poeziyasını dərk və təqdim etmək imkanlarına sahibdir. Onun indiyə qədər Nəsimi ilə bağlı qələmə aldığı başqa yazılarından və maraqla izlədiyimiz silsilə televerlişlərindən də bunu aydın görmək mümkündür.

"Nəsimi" mənzum dramı təkcə bədii istedadın yox, həm də elmi-nəzəri savadın uğurla birləşdiyi-qovuşduğu bir əsərdir. Əsərin mahiyyətinə və süjetin gedişinə dərindən baş vurduqda bu keyfiyyəti apaydın görmək mümkündür. Bəzi kiçik məqamlarda heca, bütövlükdə isə əruz ölçüləri əsasında qələmə alınan dərin məzmunlu bu mənzum pyesin poetik - üslubi manerasındakı dolğunluq, axıcılıq, deklomativ təlqinetmə gücü ilə yanaşı, obraz və hadisələrin dramaturji təqdimatı, teatral səhnələr boyu strateji hədəflərin, monoloq və dialoqların düzgün ardıcıllıq üzrə qurulması və s. istiqmətdəki məziyyətlər də böyük bir istedad və zəhmətdən xəbər verir.

Müxtəlif zamanlara məxsus hadisə və şəxsiyyətlərin bədii şərtilik daxilində eyni səhnədə təmsil olunması da Sayman Aruzun uğurlu axtarışı sayıla bilər. "Həllac Mənsur-Nəsimi", "Şəms Təbrizi -Nəsimi", "Şah İsmayıl Xətayi-Nəsimi", "bu günkü müstəqil Azərbaycana gələn yol-Nəsimi" səhnə paralelləri ədəbi manera kimi yaxşı düşünülmüşdür. Sözün həqiqi mənasında cəsartlə qələmə alımış bu mənzum dramı Nəsiminin apardığı siyasi və fəlsəfi mücadilənin tərkib hissəsi kimi dəyərləndirmək mümkündür. Zaman, məkan və hadisələrin şərti yerdəyişməsi məsələsini əsər boyu diqqət önündə saxlayan müəllifin mətnaltı eyhamları da tarixi-siyasi hadisələrin çağdaşlığa bağlı mahiyyətini dolayı yanaşma metodları ilə aça bilir. Ümumiyyətlə, Nəsimi

mənzum dramı tarixi - xronikal müstəvidə intertekstuallığı, eləcə də dünənlə bu günün vəhdətini təmin və təchiz edən maraqlı bir əsərdir. Çünki burada çoxsaylı mətnlərin vahid bir axara yönəlib birləşməsi-bütövləşməsi öz uğurlu nəticəsi ilə diqqət çəkir.

Bu mənzum pyesdəki hadisələr süjetin yekun mərhələsində uzaq tarix səhnəsində olduğu kimi tragik bir sonluqla bitsə də, əsərin ümumi ruhu, mücadilə gücü işıqlı, aydın sabaha çağırışla tamamlanır. Sufi və hürufi fəlsəfəsində, eləcə də folklor düşüncəsindəki sakral yeddi rəqəminə söykənmək bu yeddi pərdəli dramı, əsərin alt qatlarından gələn və gələcəyə yol alan əsas mətləbləri məhz elə sonuncu, yeddinci pərdədə strateji hədəf kimi açıqlayır. Ideoloq Şeyx Heydər və onun oğlu Şah İsmayıl arasında gedən şərti-bədii mükalimə Nəsimi ruhunu vətənin birliyi, bütövlüyü və istiqlal düşüncəsi kimi ortaya qoyur. Məhz bu tarixi-siyasi müstəvi üzərindən mənzum pyesin ana leytmotivi öz mahiyyətini tam olaraq açıqlaya bilir:

***"Məqsədin xalq, mətləbin xəlqdir sənin,***
***Məzhəbin xalq, məbədin xəlqdir sənin."***

Əsərin ana axarından boy göstərən bu mühim fəlsəfi-siyasi çağırış bugünümüzün və sabahımızın yolunu göstərir. Əslində bu, "Nəsimi" mənzum pyesini bütün mahiyyətinə çevrələyən keyfiyyətlər tarixi mənzərəni çağdaşlığa çəkib gətirir. Ata-oğul xəttini, Nəsimidən gələn sələf və xələf mənəvi münasibətləri statusuna yönəldir, onların birliyini-birgəliyini strateji hədəfə və məqsədə çevirir.

Açıq söyləməliyəm ki, uzun zamandan bəri Azərbaycan mənzum dramaturgiyasında belə dərin məzmunlu bədii əsərə ehtiyac var idi. Bu, sözün yaxşı mənasında Hüseyn Cavid ənənəsinin davamıdır. Sayman Aruz onu duyub dəyərləndirməyi bacarmışdır. Orasını da deyim ki, "Nəsimi" mənzun pyesi bir az daha ağıllı oxucu istəyir, düşünməyi, mənalandırmağı bacaran oxucu...

Sayman Aruz (Həsənzadə Sayman Qulaməli oğlu) Güney Azərbaycanın Sulduz mahalında doğulub, Bakı Dövlət Universitetini bitirib, Azərbaycan Yazıçılar Birliyində Güney Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində çalışır. Onun özünün varlığında Nəsimi ruhu vardır. Bu mənada qələmə aldığı dərin məzmunlu "Nəsimi"





mənzum dramında da Nəsimi yolunu yürüyən və heç zaman geriyə dönüşün mümkün olmadığını bilən bir tarixi obrazı canlandırıb. Həm də Nəsimidən sonra gələn Nəsimilərin obrazı kimi...

***2020 - Bakı***

***P.S. Əsərdə "Ənəlhəq" düşüncəsinin "Mən Allaham" kimi yox, məhz "Allah məndədir" şəklində təqdim və təlqin olunması da çox ürəyimdən oldu. Çünki Nəsimi hürufiliyə sufilikdən gəlmişdi. Bu düşüncə sahibləri "Allah məndədir" inamından başqa heç bir qənaətə gələ bilməzdilər...***

***Məhərrəm Qasımlı***
***Azərbaycan Respublikası***
***Dövlət Mükafatı Laureatı***
***Əməkdar Elm Xadimi, professor***

